**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**İQTİSADİYYAT İNSTİTUTU**

# ƏMR № 163

Bakı şəhəri                                                        “ 03 ”  oktyabr  2023

***Plagiata qarşı əlavə tədbirlər haqqında***

Elmi əsərlərin plagiat xüsusunda yoxlanılması üzrə hazırda tətbiq edilən qaydaların təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Bunu nəzərə alaraq, dissertasiyalarda, elmi ad almaq üçün təqdim edilən elmi əsərlərdə, Elmi Şuraya çapa tövsiyə olunmaq üçün təqdim edilən əsərlərdə müəllifinə və mənbəyinə istinad vermədən digər müəlliflərin materiallarından istifadəni aşkarlamaq məqsədi ilə İnstitutda mövcud olan qaydaların təkmilləşdirilməsi məqsədi ilə

**Əmr edirəm:**

1. Dissertasiyalar da daxil olmaqla elmi əsərlərin plagiat mövzusunda yoxlanılması üçün İnstitutda 24 yanvar 2022-ci il 13 №-lı əmrlə yaradılmış "Plagiata qarşı ekspert Komissiyası"nın tərkibinə aşağıdakı dəyişikliklər edilsin:

   1.1. Ərizəsi nəzərə alınaraq, i.f.d. Fətəliyeva Gülnarə Akif qızı Komissiya sədrliyindən azad edilsin;
   1.2. Komissiyaya:
   e.i. Əsədov Dilman Eldar oğlu – sədr,
   e.i. Babazadə Fəxrəddin Bayram oğlu – üzv,
   k.e.i. Şıxıyev Murad Teymur oğlu – üzv təyin edilsinlər.

2. Seminara təqdim olunan dissertasiyalar, elmi ad almaq üçün AAK-a göndərilən əsərlər, İnstitut Elmi Şurasının qərarı ilə çapa tövsiyə olunan monoqrafiya, kitab və məqalələrin plagiatlığının yoxlanılması haqqında qaydalar yenilənmiş formada Elmi Şuraya təqdim edilməzdən əvvəl Komissiya tərəfindən Ekspert üsulu ilə yoxlanılsın və təsdiq olunsun.

3. Dissertasiyaların plagiat mövzusunda yoxlanılması iki mərhələdə həyata keçirilsin:
   - ilkin müzakirəyə təqdim edilərkən – “Strikeplagiarism” antiplagiat sistemi vasitəsi ilə;
   - elmi seminara təqdim edilərkən – Komissiya tərəfindən Ekspert yoxlaması üsulu ilə.

4. Komissiyanın sədri bu Əmrin Saytda nəşr olunduğu gündən sonrakı bir həftə ərzində Ekspert yoxlamasının nəticələri üzrə veriləcək standart Arayış formasını hazırlayaraq, təsdiq üçün Elmi katibə təqdim etsin.

5. Komissiya 3 oktyabr 2023-cü il tarixindən fəaliyyətə başlasın.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.10.2020-ci il tarixli 375 saylı Qərarı, AMEA Prezidentinin 13.11.2020-ci il tarixli 451 saylı Sərəncamı və ETN İqtisadiyyat İnstitutunun Nizamnaməsi rəhbər tutularaq, qənaət edilmiş vəsait hesabına Komissiyanın sədri və üzvlərinin əmək haqqına vəzifə maaşlarının 50%-i həcmində əlavə ödənilsin.

7. Bu Əmr İnstitutun rəsmi internet saytında (M.Zeynalov) və Elanlar lövhəsində (M.Ağayeva) yerləşdirilsin. Əmrin surəti AAK-a təqdim olunsun (N.Məlikova).

8. 15 may 2023-ci il tarixli 72№-li "Elmi əsərlərin plagiat xüsusunda yoxlanması qaydalarında dəyişiklik edilməsi" haqqında əmr qüvvədən düşmüş hesab edilsin.

9. Əmrin icrasına nəzarət Elmi katib i.f.d., dos. L.Allahverdiyevaya həvalə edilsin.

10. Əmr imzalandığı tarixdən qüvvəyə minir.

**Baş direktor** **prof. N.Müzəffərli (İmanov)**